# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№368/2** **30 sentyabr 2024-cü il**

## "Auditor təşkilatlarının və sərbəst auditorların 2024-cü ilin I yarımilliyi üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə" hesabata dair

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.5-ci "Auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) tərəfindən 2024-cü ilin I yarımilliyi üzrə hazırlanmış icmal-tövsiyələri müzakirə edərək Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. "Auditor təşkilatlarının və sərbəst auditorların 2024-cü ilin I yarımilliyi üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə" hesabat nəzərə alınsın (əlavə olunur).
2. 2023-cü ilin I yarımilliyi ilə müqayisədə 2024-cü ilin I yarımilliyində ölkə üzrə auditor xidmətinin həcminin 20,6% və ya 8,4 mln manat artması mütərəqqi hal kimi qiymətləndirilsin.
3. 2024-cü ilin I yarımilliyi ərzində ölkə üzrə göstərilmiş auditor xidmətinin həcmi aşağıda adları qeyd olunan bir sıra auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2023-cü ilin I yarımilliyi ilə müqayisədə müqavilə məbləğinin 50%-dən çox olması qənaətbəxş hesab edilsin:

Auditor təşkilatları:

- "A.R AUDİT AND CONSULTİNG SERVICES" MMC (direktor-Anar Rəsulov)
- "Abacus Audit anc Consulting" MMC (direktor-Rüfət Zeynalov)
- "ABAK-Az Crovve LTD" MMC (direktor-Zamin Hüseynov)
- "ANR Audit" MMC (direktor-Namiq Abbaslı)
- "ATC SERVICES" MMC (direktor-Orxan Rzayev)
- "AZFİNANCE AND CONSULTİNG" MMC (direktor-Elnur Kazımov)
- "Business Consulting Company" MMC (direktor-Rəhman Məmmədov)
- "Deloitte & Touche" MMC (direktor-Nuran Kərimov)
- "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialı (İdarəedici partnyor: İlqar Vəliyev)
- "KPMG Audit Azərbaycan" MMC (direktor-Yakovlev Vitaly)
- "Cəfəroğlu Audit" (direktor-Şəhla Rzalı)
- "Ekol Audit" MMC (direktor-Elçin Qulizadə)
- "Elite Tax Master" MMC (direktor-Camal Rəcəbov)
- "FCHAİN Audit" MMC (direktor-Valid Hüseynov)
- "Finans Audit-M" MMC (dirketor-Mübariz Məhərrəmov)
- "Four Reason" MMC (direktor-Vüsal Qasımov)
- "Global Assurance" MMC (direktor-Ədilə Süleymanova)
- "Grant Thornton" məhdud məsuliyyətli cəmiyyətinin Azərbaycan Respublikasındakı filialı (direktor-Farouk Mohamed)
- "Grovv Audit and Consulting" (direktor-Orxan Abdurahmanov)
- "HLB Audit" MMC (direktor-Müşfiq Əliyev)

- “İAS” MMC (direktor-Aqşin Əhmədov)
- “İntex Audit” MMC (direktor-Ruhin Əliyev)
- “İnter Audit” auditor təşkilatı (direktor-Əlimuxtar Bağırov)
- “İnternational Consulting and Support Services” MMC (direktor-Ramin Paşayev)
- “Kreston Global CBC” MMC (direktor-Rauf Həsənov)
- “Local Audit” MMC (direktor-Fərhad Quliyev)
- “LŞ Audit” MMC (direktor- Fərhəddin Hüseynov)
- “M ənd J Konsalting” MMC (direktor-Elçin Cəfərov)
- “NZA Audit” MMC (direktor-Nihad Axundov)
- “One Consulting” MMC (direktor-Ələddin Babayev)
- “Praysvoterhauskupers Audit Azərbaycan” MMC (direktor- Fəxri Mustafayev)
- “RM Audit” MMC (direktor-Rasət Miriyev)
- “RSM Azerbaijan” MMC (direktor-Tural Məhərrəmov)
- “Smart Audit” MMC (direktor-Emil Məmmədov)
- “Timp” MMC (direktor-Orxan Məhərrəmov)
- “TNM Audit” MMC (direktor-Nəcəf Talıbov)

Sərbəst auditorlar:

- Avtandil Əliyev
- Elçin Quliyev
- Qulu Soltanov
- Məmməd Allahverdiyev
- Nail Əlizadə
- Vasif Tağıyev
- Yaqub Əliyev
- Yaşar Abbasov

4. 2024-cü ilin I yarımilliyi ərzində ölkə üzrə göstərilmiş auditor xidmətinin həcmi aşağıda adları qeyd olunan bir sıra auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2023-cü ilin I yarımilliyi ilə müqayisədə müqavilə məbləğinin 50%-dən az olması qeyri-qənaətbəxş hal kimi dəyərləndirilsin:

Auditor təşkilatları:

- “İnternational Audit” MMC (direktor-Zaur İsmayıllı)
- “VN FİNANS GROUP” MMC (direktor-Valeh Hüseynzadəh)

Sərbəst auditorlar:

- Vəli Bayramov
- Eldəniz Çələbiyev
- Şamxal Kərimov
- Vaqif Qarayev

5. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki:

5.1. Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq auditor xidmətlərinin göstərilməsini, öz fəaliyyətlərində şəffaflığın yüksəldilməsini, daxili nəzarətin genişləndirilməsini, haqsız rəqabət və dempinq hallarına yol verilməməsini və auditə ictimai etimadın artırılmasını təmin etsinlər;

5.2. Auditor xidməti bazarında xidmət haqqı məbləğlərini aşağı salmaqla Auditorlar Palatasının digər üzvlərinə qarşı haqsız rəqabət hallarının və keyfiyyətsiz auditor xidməti göstərilməsinin qarşısının alınması məqsədilə Auditorlar Palatasının üzvləri tərəfindən imzalanmış Partnyorluq Sazişinin müddəalarına riayət edilməsini təmin etsinlər;

5.3. Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlər”inə riayət etsinlər;

5.4. Auditor yoxlaması zamanı sifarişçilərin fəaliyyətində ƏL/TMM üzrə qanunvericiliyin tələblərinə əməl edilməsi, bu sahədə mövcud ola bilən neqativ halların, nöqsan və çatışmazlıqların aşkar edilməsi, onların qarşısının alınması üzrə təsirli tədbirlərin görülməsini və belə halların aradan qaldırılması istiqamətində öz öhdəliklərini tam və vaxtında yerinə yetirilməsini təmin etsinlər.

6. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki:

6.1. 2024-cü ilin I yarımilliyi üzrə məcburi auditdən keçmə səviyyəsinin aşağı olduğu təsərrüfat subyektləri, o cümlədən məhdud məsuliyyətli cəmiyyətlər (37,9%), səhmdar cəmiyyətləri (77,3%), bələdiyyələr (24,9%), publik hüquqi şəxslər (22,2%) və siyasi partiyalar (28,0%) barədə məlumatların on gün müddətində aidiyyəti qurumlara göndərilməsi təmin edilsin;

6.2. 2024-cü ilin I yarımilliyi ərzində bağlanmış, lakin ləğv olunmuş müqavilələr araşdırılsın və nəticələri barədə Palatanın rəhbərliyinə on gün müddətində arayış təqdim edilsin;

6.3. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) ilə birlikdə auditor xidməti bazarında qeyri-qanuni fəaliyyət göstərən və təşkilati-hüquqi formasına görə subyektlərin bir hissəsinin (yəni nə məhdud məsuliyyətli cəmiyyət, nə də səhmdar cəmiyyətidir) məcburi auditdən yayındıqlarını nəzərə alaraq Auditorlar Palatası tərəfindən aidiyyəti dövlət qurumlarına müraciətin göndərilməsi təmin edilsin.

7. Bu qərarın mətni Palatanın internet səhifəsində və “Auditorun şəxsi kabineti” sisteminin xəbərlər bölməsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**